# “İpək Yolu Sığorta” Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2024-cü il tarixə maliyyə hesabatlarına izahlı qeydlər və uçot siyasəti haqqinda qısa məlumat

**Qeydiyyat və lisenziya**

“İpək Yolu Sığorta” ASC (əvvəlki adı “AZAL SIĞORTA” ASC) 06 sentyabr 1995-ci il tarixində Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 98 saylı qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına, 06 yanvar 2010-cu il tarixdə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən “bir pəncərə” prinsipinə əsasən 9900002671 saylı qeydiyyat nömrəsi ilə təkrar dövlət qeydiyyatına alınmışdır.

Cəmiyyətin hüquqi ünvanı: Bakı şəhəri, AZ1000 Xaqani küç., 1.

Cəmiyyət faktiki olaraq Bakı şəhəri, AZ1045 Heydər Əliyev prospekti., 573 ünvanında fəaliyyət göstərir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən verilmiş 06 iyul 2011-ci il tarixli 000454 saylı müddətsiz lisenziyaya əsasən, Cəmiyyət aşağıdaki sığorta növləri üzrə sığorta əməliyyatlarını həyata keçirə bilər:

- Aviadaşıyıcıların üçüncü şəxslər qarşısında mülki məsuliyyətinin sığortası;
- Elektron cihaz və avadanlıq sığortası;
- Fiziki şəxslərə təqdim edilən avtomobil nəqliyyatı vasitələrinin tam sığortası;
- Fiziki şəxslərin əmlakının sığortası;
- Fərdi qəza (bədbəxt hadisələrdən) sığortası;
- Hüquqi şəxslərin və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin əmlakının sığortası;
- Hava limanı sahiblərinin və hava hərəkəti idarəetmə orqanlarının mülki məsuliyyətinin sığortası;
- Hava nəqliyyatı vasitələrinin sığortası;
- Hüquqi şəxslərə məxsus avtonəqliyyat vasitələrinin sığortası;
- İş fəaliyyəti prosesinin dayanmasının sığortası;
- İşəgötürənin məsuliyyətinin sığortası;
- Könüllü tibbi sığortası;
- Montaj sığortası;
- Tikinti-quraşdırma riskləri sığortası;
- Ümumi məsulliyətin və peşə məsuliyyətinin sığortası;
- Yüklərin sığortası;
- İpoteka predmeti olan əmlakın sığortası;
- Qiymətli əşyaların daşınması sığortası;
- Bankların və maliyyə xidmətləri göstərən digər hüquqi şəxslərin risklərinin kompleks sığortası;
- Səyahətin kompleks sığortası;
- Auditorların peşə məsuliyyətinin icbari sığortası;
- Daşınmaz əmlakın icbari sığortası;
- Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası;
- Sərnişinlərin icbari fərdi qəza sığortası.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən Cəmiyyətə təkrarsığorta fəaliyyətinin aparılması üçün verilmiş 06 may 2014-cü il tarixli 080572 saylı müddətsiz lisenziya, Cəmiyyətin müraciəti əsasında könüllü qaydada, 22 oktyabr 2018-ci il tarixdə ləğv edilmişdir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən Cəmiyyətə icbari sığorta növlərinin aparılması üçün verilmiş 18 aprel 2012-ci il tarixli icazə, Cəmiyyətin müraciəti əsasında könüllü qaydada,

24 yanvar 2023-cü il tarixdə məhdudlaşdırılmış, Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası növü üzrə sığorta xidmətlərinin göstərilməsi dayandırılmışdır.

**Gəlir və xərclərin uçotu**

Gəlir və xərclər hesablama metodu ilə, gəlir almaq hüququnun və xərc çəkmək öhdəliyinin yaranması barədə hüquqi əsasın qüvvəyə mindiyi anda uçota alınır. Uçotun aparılması zamanı Azərbaycan Respublikası Mühasibat Uçotu haqqında Qanun, Vergi Məcəlləsi, Mülki Məcəllə, Sığorta fəaliyyəti haqqında Qanun, aidiyyəti digər qanunlar, qərarlar və normativ-hüquqi aktlar nəzərə alınır.

**Valyuta**

Uçotda və hesabatlarda əks olunan bütün məbləğlər manatla ifadə olunur.

**Əmlakın dəyəri**

Əmlakın ilkin dəyəri əmlakın alınmasına və quraşdırılmasına çəkilən xərclərdən ibarətdir və dəyişməz olaraq qalır. Əmlakın balans dəyəri isə ilkin dəyərlə amortizasiya məbləğinin fərqindən ibarətdir.

**Amortizasiya məbləğləri**

İstifadəyə yararlı əmlakın amortizasiya məbləğləri ilin sonuna qalıq dəyərinə aşağıdakı əmsallar tətbiq edilməklə hesablanır:

Nəqliyyat vasitələri – 25%;

Hesablama texnikası – 25%;

Maşın və avadanlıq – 20%;

Sair əsas vəsaitlər – 20%;

İstifadə müddəti məlum olmayan qeyri-maddi aktivlər – 10%;

İstifadə müddəti məlum olan qeyri-maddi aktivlər – balans dəyəri istifadə müddətinə bərabər bölünməklə.

**Mal və materiallar**

Mal və materiallar onların alınmasına çəkilən xərclər əsasında qiymətləndirilir və FİFO (first-in-first-out) metodu ilə balansdan silinir.

**Sığortalılarla hesablaşmalar**

Sığortalılarla hesablaşmalar üzrə balans hesabları birbaşa sığorta müqavilələri ilə qəbul edilmiş risklər üzrə hesablanmış sığorta haqları, ödənilmiş komisyon mükafatlar, verilmiş sığorta ödənişləri, qaytarılan sığorta haqları barədə məlumatlarə əks etdirir. Hesablaşmalar zamanı borcların qarşılıqlı əvəzləşdirilməsi mümkündür.

**Təkrarsığortaçılarla hesablaşmalar**

Təkrarsığortaçılarla hesablaşmalar üzrə balans hesabları təkrarsığortaya verilmiş risklər üzrə hesablanmış təkrarsığorta haqları, alınmış komisyon mükafatlar, sığorta ödənişlərində təkrarsığortaçıların payı, qaytarılan təkrarsığorta haqları barədə məlumatları əks etdirir. Hesablaşmalar zamanı borcların qarşılıqlı əvəzləşdirməsi mümkündür.

**Sığorta ehtiyatları və sığorta ehtiyatlarında təkrarsığortaçıların payı**

Sığorta ehtiyatları və sığorta ehtiyatlarında təkrarsığortaçıların payı Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 13 mart 2024-cü il tarixli 12/1 saylı qərarı ilə təsdiqlənmiş “Həyat

sığortası və qeyri-həyat sığortası üzrə sığorta ehtiyatlarının formalaşdırılması Qaydası”–na əsasən hesablanir.

**Əmək haqqı və əmək haqqından tutulmalar**

31 dekabr 2024-cü il tarixə Cəmiyyətin işçilərinin sayı 24 nəfərdir. Cəmiyyətin işçilərinin əmək haqları ştat cədvəlinə müvafiq olaraq hesablanır. Əmək haqlarından gəlir vergisi, sosial sığörta, işsizlikdən sığorta və icbari tibbi sığorta məqsədləri üçün ayırmalar qüvvədə olan qanunvericiliyə müvafiq qaydada hesablanır və büdcəyə köçürülür.

**Məzənnə fərqi**

Müqavilələrdə xarici valyuta ilə ifadə olunmuş məbləğlər müqavilə imzalandığı tarixə Mərkəzi Bankın məzənnəsinə uyğun olaraq manatla əks etdirilir. Məzənnənin dəyişməsi nəticəsində yaranan gəlir (xərc) məbləğləri hesabat dövrünün sonuna mənfəət və zərər hesabına silinir.

**Pul vəsaitləri**

Cəmiyyətin pul vəsaitləri – hesablaşma hesablarında, valyuta hesablarında və kassada olan pul vəsaitlərinin məcmu məbləğidir. Digər pul vəsaitlərinə Cəmiyyətin depozit hesablarına və korporativ kartlarına yerləşdirilmiş vəsaitlər aid edilir. Korporativ kartlar üzrə məlumat balansda “Sair pul vəsaitləri” kimi əks etdirilir. Depozitlərə yerləşdirilmiş pul vəsaitləri üzrə illik gəlir 3% dərəcəsi ilə hesablanır. Pul vəsaitlərindən əlavə, Cəmiyyətin maliyyə aktivlərinə dövlət və qeyri-dövlət qiymətli kağızları daxildir.

**Nizamnamə kapitalı**

Cəmiyyətin nizamnamə kapitalı nominal dəyəri 844 manat olan 17 500 ədəd adi adlı sənədsiz səhmlərdən təşkil olunmuşdur. Səhmlərin dəyəri tam ödənilmiş və dövlət qeydiyyatından keçirilmişdir.

**Vergilər**

Cəmiyyətin büdcəyə ödəmələrinin əsas hissəsini təşkil edən mənfəət vergisi, ödəmə mənbəyində vergi və qanunvericilikdə nəzərdə tutulmuş digər vergilər Vergi Məcəlləsinin tələblərinə müvafiq qaydada hesablanaraq büdcəyə ödənilir.

**Mənfəət**

İlin yekunu üzrə əldə edilmiş xalis mənfəət məbləği Səhmdarların Ümumi Yığıncağının qərarına əsasən, səhmdarlar arasında dividend şəklində bölüşdürülə, nizamnamə kapitalının artırılmasına yönəldilə və digər məqsədlərlə istifadə edilə bilər.

**Hesabat tarixindən sonra baş vermiş əhəmiyyətli hadisələr**

Hesabat tarixindən sonra hər hansı əhəmiyyətli hadisə baş verməmişdir.

İdarə Heyətinin sədri _________________ N.C.İmanov

Baş mühasib __________________ R.Ə.Quliyeva-İmranova